“Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsinin 23.02.2026 tarixli 3-27-102/3-2-6/2026 nömrəli əmri ilə təsdiq edilmişdir.

Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə təlimat

“Dövlət Mülki Aviasiya Agentliyi”publik hüquqi şəxsi

Sənəd № M-FAL-001

Nəşr tarixi: 23.FEV.2026

Nəşr № 1

Bakı

AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ
PUBLİK HÜQUQİ ŞƏXS

ƏMR

“Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə Təlimat”ın təsdiq edilməsi haqqında

Hava limanının istismarçısına hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsində metodiki dəstək göstərilməsi məqsədilə “Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə Təlimat”ın layihəsi hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 3.1.9-cu və 4.10.6-cı yarımbəndlərini rəhbər tutaraq

əmr edirəm:

1. “Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə Təlimat” (bundan sonra – Təlimat) təsdiq edilsin.
2. Təlimat Dövlət Mülki Aviasiya Agentliyinin rəsmi internet saytında yerləşdirilsin.
3. İnzibati idarəetmə departamenti bu əmrin surətinin şəxsi heyətə, o cümlədən aidiyyəti üzrə mülki aviasiya subyektlərinə çatdırılmasını təmin etsin.
4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

İdarə Heyəti sədrinin müavini,
İdarə Heyətinin sədri vəzifəsini
müvəqqəti icra edən **Bəhruz Məlikov**

Qurumun adı: Dövlət Mülki Aviasiya Agentliyi
Sənədin elektron imzalanma tarixi: 23.02.2026
Sənədin qeydiyyat nömrəsi: 3-27-102/3-2-6/2026
Imza edən şəxs: Bəhruz Məlikov Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən
Sənədin elektron yüklənmə ünvanı: https://docs.rabita.az/docs/e-doc?docId=Wjc/HB8bv8rrWnZAxA8vIcUcGuKg06u4qsDMYOF1jB4=
Qeyd: 'Elektron imza və elektron sənəd haqqında' Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir.Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

0 Sənədə nəzarət və idarəedilmə

0.1 Mündəricat

0 Sənədə nəzarət və idarəedilmə 1

0.1 Mündəricat 1

0.2 Qüvvədə olan səhifələrin siyahısı 3

0.3 Sənədin yayılma siyahısı 5

0.4 Düzəliş və dəyişikliklərin qeydiyyatı 6

0.5 Qısaltmalar 7

0.6 Sənədə nəzarət və idarəedilmə 8

Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə təlimat 1

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.2 Qüvvədə olan səhifələrin siyahısı

	Hissə 0	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik №**
1	23.02.2026	00
2	23.02.2026	00
3	23.02.2026	00
4	23.02.2026	00
5	23.02.2026	00
6	23.02.2026	00
7	23.02.2026	00
8	23.02.2026	00
	Təlimat	
Səhifə	**Qüvvəyəminmə tarixi**	**Dəyişiklik №**
1	23.02.2026	00
2	23.02.2026	00
3	23.02.2026	00
4	23.02.2026	00

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB

0.3 Sənədin yayılma siyahısı

Nüsxə №	Nüsxənin tipi	Struktur bölmə	Yerləşmə
Master	**(S)**	Keyfiyyətə nəzarət sektoru	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzarət sektoru	Q-Pulse

(S) Soft Copy - (Elektron nüsxə)

(H) Hard Copy – (Çap olunmuş nüsxə)

Qeyd: Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.

0.4 Düzəliş və dəyişikliklərin qeydiyyatı

Nəşr/Dəyişiklik nömrəsi	Nəşr/Dəyişikliyin tarixi	Qüvvəyəminmə	Səbəb
Nəşr №1	23.02.2026	23.02.2026	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı başlığında göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmiş dəyişiklik. Düzəlişlərə dair əsas məlumatlar (nömrə və tarix) "Qüvvədə olan səhifələrin siyahısı"nda göstərilir və həm müvafiq səhifənin başlığında və mətnin özündə qeyd olunur.

0.5 Qısaltmalar

0.6 Sənədə nəzarət və idarəedilmə

Hər hansı dəyişikliklərin edilməməsi üçün PDF faylları qorunacaq və imzalanacaq.
Bu sənədə müntəzəm olaraq yenidən baxılır və dəyişdirilir. Müvafiq işçi heyəti bütün düzəlişlərlə tanış olmalıdır.
Bu sənəd "Sənədlərə nəzarət" prosedurunun tələblərinə uyğun olaraq dəyişdiriləcək və yenidən baxılacaqdır.

Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə təlimat

1. Ümumi müddəalar

1.1. Hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının tərtib edilməsi üzrə təlimat (bundan sonra - Təlimat) hava limanının istismarçısına hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramının (bundan sonra – Proqram) tərtib edilməsində metodiki dəstək göstərilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Təlimat "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya, həmin Konvensiyaya 9 nömrəli Əlavə – "Rəsmiyyətin sadələşdirilməsi" (bundan sonra – 9 nömrəli Əlavə) ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, o cümlədən "Doc 9957, rəsmiyyətin sadələşdirilməsi Təlimat"ına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – Qanun), Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 520 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"na (bundan sonra – Dövlət Proqramı), habelə Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.3. Bu Təlimat hava gəmisinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt daşımalarının və bort ehtiyatlarının hərəkətinin asanlaşdırılması, gecikmələrin qarşısının alınması, hava əlaqələrinin sürətləndirilməsi məqsədilə prosedurların sadələşdirilməsi üçün "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair hava limanı proqramı"nda nəzərdə tutulacaq tədbirlər kompleksini özündə ehtiva edir və məqsəd Proqramın "Dövlət Proqramı"na uyğun olaraq tərtib edilməsi və icrasının səmərəli şəkildə tətbiqidir.

1.4. Qanunun 45.2-ci və 45.4-cü maddələrinə əsasən, Dövlət Proqramına uyğun olaraq hər bir hava limanı Proqram tərtib edir və təsdiq üçün Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra – Agentlik) rəsmi qaydada təqdim edir.

1.5. Proqramda edilən dəyişikliklər rəsmi qaydada edilmiş müraciətə əsasən, Agentlik tərəfindən təsdiq edilir.

1.6. Proqram dövlət dilində tərtib edilməlidir. Zərurət yarandıqda, hava limanının istismarçısı tərəfindən hava limanının bütün istifadəçiləri üçün BMAT-ın işçi dillərindən birinə tərcümə edilə bilər.

1.7. Proqram hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində əsas sənədidir və hava limanının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üzrə müfəssəl siyasətini, qaydalarını və proseduralarını ehtiva etməlidir.

1.8. Hər bir hava limanı Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın, eləcə də hava limanının (aeroportun) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair komissiyanın qərarlarına uyğun əlavə, dəyişiklik və düzəlişləri Proqrama daxil etməlidir.

1.9. Hava limanının istismarçısı daxili əmri ilə Proqramın tərtib edilməsinə, tətbiqinə və tətbiqinə nəzarət edilməsinə, habelə dəyişiklik, əlavə və düzəlişlərin daxil edilməsinə, o cümlədən bununla bağlı Agentliyə, Proqramın icrasına cəlb edilmiş dövlət orqanlarına

(qurumlarına) və xidmət təminatçılarına məlumat verilməsinə cavabdeh olan məsul şəxs təyin etməlidir.

1.10. Proqramda zərurət olduqda əlavələr və dəyişikliklər aparılmalıdır. Proqramın təftiş edilməsi barədə müvafiq yazı sənədin tarixçə bölməsində qeyd edilməlidir.

1.11. Əgər düzəliş hava limanında quraşdırılmış avadanlığın istehsalçısı tərəfindən xüsusi nəşr şəklində (təlimat, bülleten və s.) daxil edilibsə, o zaman, Proqrama təyin edilmiş məsul şəxs, təqdim edilmiş dəyişikliklərin uyğunluğunu təmin etməlidir.

1.12. Proqrama edilən düzəlişlər yeni və ya əvəzləyən səhifələr şəklində tərtib edilməlidir. Yeni və ya əvəzləyən səhifədə səhifənin adı, onun qəbulu və qüvvəyə minmə tarixi olmalıdır.

1.13. Proqrama edilən düzəlişlər və dəyişikliklər barədə məlumat proqramın icrasına cəlb edilmiş dövlət orqanlarına (qurumlarına) və xidmət təminatçılarına bildirilməli, eləcə də düzəlişlər və dəyişiliklər vərəqində müvafiq qeydlər edilməlidir.

1.14. Proqramın hər bir nüsxəsi nömrələnməli, göndəriş siyahısına uyğun olaraq imza atmaqla, Proqramın icrasına cəlb edilmiş dövlət orqanlarına (qurumlarına) və xidmət təminatçılarına paylanmalıdır.

1.15. Proqram və ya onun müvafiq hissələri sorğu əsasında dövlət orqanlarına (qurumlara) və aviasiya subyektlərinə təqdim edilə bilər.

1.16. Hava limanının bütün istifadəçiləri Proqramın müvafiq bölmələri və hissələri ilə (aidiyyəti üzrə) təmin olunurlar. Onlar bu bölmələrdən və hissələrdən müvafiq proqramların hazırlanmasında istifadə etməlidirlər.

1.17. Hava limanının şəxsi heyəti Proqramın tələblərini aidiyyəti üzrə bilməli və bu tələblərin yerinə yetirilməsinə görə cavabdehdir.

1.18. Proqram və Proqramın nüsxələri çap variantında - A4 formatlı (297x210 mm) kağızda 12 şrifti ilə və ya elektron versiyada ola bilər. Çap versiyada kağız və şəkillərin keyfiyyəti çətinlik olmadan oxunmanı təmin etməlidir.

2. Proqramın strukturu

2.1. Proqram Azərbaycan Respublikasının rəsmiyyətin sadələşdirilməsi sahəsindəki normativ hüquqi aktların tələblərinə uyğun olaraq işlənib hazırlanır və aşağıdakı əsas elementləri özündə ehtiva edir:

2.1.1. abreviaturlar və ixtisarlar, həmçinin terminlər və anlayışlar, onların şərhi və izahı;

2.1.2. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi tədbirlərinin təmin olunmasında iştirak edən səlahiyyətli orqanlarla (qurumlarla), təşkilatlarla razılaşdırma vərəqi;

2.1.3. Proqramın paylanma siyahısı;

2.1.4. aidiyyəti təşkilatların, xidmət təminatçılarının Proqramın tərkibinə daxil olan rəsmiyyətin sadələşdirilməsi tədbirləri ilə tanışlığı üçün göndərilmə vərəqi (düzəlişlər də daxil olmaqla Proqramın təqdim edilməsi və onun təsdiqinin alınması, həmçinin onun aidiyyəti orqanlara (qurumlara) paylanılması qaydası təsvir edilir;

2.1.5. təftişlərin və nəşrlərin bütün məlumatları daxil olmaqla əlavələrin qeydiyyat vərəqi;

2.1.6. Proqramın məqsədi;

2.1.7. Proqramın fəaliyyət istiqamətləri;

2.1.8. təşkilat və idarəetmə;

2.1.9. əlavələr.

3. Proqramın məqsədi

3.1. Proqram hava gəmisinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt daşımalarının və bort ehtiyatlarının hərəkətinin asanlaşdırılması üçün prosedurların sadələşdirilməsi məqsədilə 9 nömrəli Əlavənin beynəlxalq standartlarının və tövsiyə olunan təcrübəsinin, habelə Dövlət Proqramının təşkilati səviyyədə həyata keçirilməsinin təmin edilməsini nəzərdə tutur.

3.2. Proqramın məqsədləri aşağıdakılardır:

3.2.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi, əməliyyatların səmərəliliyinin artırılması;

3.2.2. keyfiyyətli aviasiya xidmətlərinə əlçatanlığı təmin etməklə sərnişinlərin səyahət təcrübəsinin yaxşılaşdırılması;

3.2.3. Proqramın həyata keçirilməsinə cəlb edilmiş rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının), xidmət təminatçılarının və yerüstü xidmət təminatçılarının fəaliyyətinin əlaqələndirilməsi və rəsmiyyətin sadələşdirilməsi üzrə birgə fəaliyyətin təşkili;

3.2.4. sahəvi islahatlar sayəsində rəqabət qabiliyyətinin yüksəldilməsi, daha çox sərnişin və turistin cəlb edilməsi;

3.2.5. beynəlxalq hava daşımalarında Avropa və Asiya arasında tranzit qovşağı kimi hava limanının perspektivliyinin yüksəldilməsi;

3.2.6. hava limanlarının digər dövlətlərdə qeydiyyatda olan istismarçıların iştirakı ilə istismarının stimullaşdırılması və fəaliyyətlərinin genişləndirilməsi.

4. Proqramın fəaliyyət istiqamətləri

4.1. Proqram Azərbaycan Respublikasının ərazisində yerləşən bütün beynəlxalq hava limanlarında tətbiq olunmalı və aşağıdakı fəaliyyət istiqamətlərini əhatə etməlidir:

4.1.1. ölkəyə gələn və ölkədən gedən hava gəmilərinə dair rəsmiyyətin sadələşdirilməsi prosedurları;

4.1.2. ölkəyə gələn və ölkədən gedən sərnişinlərə və onların baqajına dair rəsmiyyətin sadələşdirilməsi prosedurları;

4.1.3. ölkəyə gələn və ölkədən gedən yüklərə, poçt daşımalarına dair rəsmiyyətin sadələşdirilməsi prosedurları;

4.1.4. ölkə hüdudlarından kənara inzibati və ya məcburi qaydada çıxarılmış və ya girişinə qadağa və ya müəyyən müddətə məhdudiyyət qoyulmuş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə dair rəsmiyyətin sadələşdirilməsi prosedurları;

4.1.5. sərnişin, yük və hava gəmisi axınının səmərəli idarə olunması üçün beynəlxalq hava limanında mövcud olmalı olan infrastruktur və xidmətlər;

4.1.6. hava gəmisinin fors-major (hava şəraiti, texniki nasazlıq) və ya digər səbəblərdən beynəlxalq statusu olmayan və ya təyin olunmuş hava limanından kənar yerə enməsi hallarındakı prosedurlar;

4.1.7. ümumi prosedurlardan kənara çıxan, daha spesifik və həssas sahələrə aid olan prosedurlar;

4.1.8. sərnişin məlumat sistemlərinin təşkili;

4.1.9. səhiyyə tədbirləri və ictimai sağlamlığın təmin olunması ilə bağlı prosedurlar.

5. Proqramın icrasının təşkili və idarəetmə

5.1. Proqramın hava limanlarında icrasına nəzarət və onun həyata keçirilməsinin təmin edilməsi aidiyyəti üzrə hava limanının (aeroportun) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair komissiya (bundan sonra – Hava limanı Komissiyası) tərəfindən

həyata keçirilir.

5.2. Hava limanı Komissiyası öz fəaliyyətini Əsasnaməsinə uyğun olaraq həyata keçirir və aidiyyəti üzrə Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyaya hesabat verir.